**Moskva və bütün Rusiyanın Patriarxı KİRİLLİN**
**Rus Pravoslav Kilsəsinin arxipastırlarına, keşişlərinə, diakonlarına, rahiblərinə və bütün sadiq övladlarına**
**Milad müraciəti**

**Ey arxipastırlar həzrətləri,**
**möhtərəm presviterlər və diakonlar, Tanrı aşiqi rahib və rahibələr,**
**əziz bacılar və qardaşlar!**

Hamınızı Rəbbimiz, Allahımız və Xilaskarımız İsa Məsihin nurlu Miladı bayramı münasibətilə ürəkdən təbrik edirəm və sizə qədim kilsə himninin sözləri ilə müraciət edirəm: *"Məsih doğulur - Onu izzətləndirin! Məsih Göylərdən enir - Onu qarşılayın! Məsih yer üzərindədir – Onunla yüksəlin!"* (Milad kanonunun 1-ci nəğməsinin irmosu).

Həvari Paul İlahi Təcəssüm hadisəsini *"möminliyin böyük sirri"* adlandırdı (1 Tim 3, 16). Bu sirrin qarşısında bütün dünyəvi müdriklik heyrət içində susur. Onun qarşısında puç olan insan biliyi solur. O, hətta ən sərt və ən daşlaşmış ürəyi belə tərksilah etmək və yumşaltmaq gücünə malikdir. Bu dünyanın qəddarlığı və kini arasında, hər bir bölünməni sağalda bilən, bizə əsl sülh və həqiqi xoşbəxtlik bəxş edə bilən O, doğulur.

Günah insan həyatına daxil olduğu andan, yer üzündə faciəvi bölünmə hökm sürməyə başladı və nurun əsl Mənbəyi olan Yaradandan ayrılan dünya qaçılmaz olaraq qaranlığa və xaosa qərq olmağa başladı. Lakin Allah xilqətini tərk etmədi və onu qayğısız qoymadı. Xilasımızı səbirlə hazırlayan Rəbb cism oldu, bəşər tarixinə daxil oldu və bizlərdən biri oldu. Allahın Oğlu günahdan başqa hər şeydə bizim kimi İnsan Oğlu oldu. Bir vaxtlar Eden bağında verilən kədər dolu *"Haradasan, Adəm?"* sualı nəhayət Beytlehem yaxınlığındakı fağır bir mağarada cavab tapdı. Həvari Paulun yazdığı kimi, "*İlk insan yerin torpağından, ikinci İnsan göydən yarandı"* (1 Kor 15,47). Məsihdə, yeni Adəmdə kimi, *Allah dünyanı Özü ilə barışdırdı* (2 Kor 5, 19), insan təbiətini yenilədi, onu günahın yaralarından sağaltdı.

İnsanın və bütün dünyanın həyatı yalnız Allahda şəfa tapır – bugünkü bayramın şahidlik etdiyi sadə, lakin dərin həqiqət budur. Uca Allahın müdrik qəzzavü-qədərini müqəddəs heyranlıqla izzətləndirən mübarək Avqustinin ilhamverici sözlərini necə xatırlamamaq olar! *"Sən bizi Özün üçün yaratdın və qəlblərimiz Səndə dincəlməyincə rahatlıq tapmaz"* (Etiraf). Yalnız Məsih İsada Allah ilə birlik əldə olunur və dünyanın yaranmasından əbədiyyətə çağırılan insan həyatının əsl mənası tapılır.

Xilaskarın dünyaya gəlişi, ilk növbədə, insanlara olan İlahi sevginin vəhyidir: bir tərəfdən sonsuz və hər şeyə qalib gələn sevgi, digər tərəfdən isə *hər şeyə qatlaşan, hər şeyə inanan, hər şeyə ümid bəsləyən, hər şeyə dözən* təvazökar sevgi (1 Kor 13, 7).

Yaradanımızın böyük sevgisinə necə layiqincə cavab verə və Ona necə yaxınlaşa bilərik? Bu yaxınlıq İncil əmrlərinə sadiq qalmağımız, bir-birimizə səbir və səmimi sevgimiz və ən əsası, Müqəddəs Yevxaristiya ayini zamanı Məsihlə birliyimizin daim yenilənməsi sayəsində əldə edilir və təsdiqlənir.

Bu gün ümid bayramıdır. Sülh bayramıdır. Sakit sevinc bayramıdır. Doğulan Xilaskarı izzətləndirərək, Onu gözəl ilahilər və kilsə himləri ilə salamlayaraq, gəlin dünyanın nuru və yerin duzu olmaq uca xristian çağırışımızı xatırlayaq (Matta 5, 13-14) və *nə qədər fürsətimiz varsa, hamı üçün, xüsusən imanlılar ailəsi üçün yaxşı işlər görək* (Qal 6,10). Kədərlənənlərə ümid verək, ümidsizlərə təsəlli verək, yaxın və uzaq insanlarla sevincimizi paylaşaq və ehtiyacı olanlara kömək edək - bunu etməklə, həqiqətən də *Allaha xoş olan Məsih ətri* olacağıq (2 Kor 2, 15) və doğulmuş Rəbbə xoş hədiyyələr gətirəcəyik.

Müxtəlif səbəblərə görə hələ də Kilsənin xilas dairəsindən kənarda qalanlara və Məsihin icmasının həyatında iştirak etməyənlərə isə müraciət edirəm: ürəklərinizi Allaha açın, çünki O *bizi o qədər sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun.* (Yəhya 3,16). Gəlin Rəbbi və Xilaskarı Onun insan nəslinə olan misilsiz mərhəməti və sevgisi üçün izzətləndirək.

Əzizlərim, hər kəsi Milad bayramı münasibətilə təbrik edərək, sizə Xilaskarın Mövludunda güc və tükənməz sevinc arzulayıram. Atamız Allahdan və Rəbb İsa Məsihdən sizə lütf və sülh olsun! (Ef 1, 2). Amin.

**MOSKVA VƏ BÜTÜN RUSIYANIN PATRIARXI**

*Məsihin Miladı*
*2025 / 2026 il*
*Moskva*